# KİTABXANA İNNOVASİYALARININ MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

**Həbib Əlizadə**

*BDU, Kitabxanaşünaslıq kafedrasının dissertantı*

İnnovasiya fəaliyyəti cəmiyyətin sosial mühitinin inkişafının əsas şərti kimi çıxış edir. Maarifləndirici, elmi, sosial, siyasi innovasiyaların mövcudluğu cəmiyyətin və mədəniyyətin daim yeniliklər axtarışına və onların tətbiqinə meyilli olmasına əsas verir. Buna görə də kitabxana-informasiya fəaliyyəti ilə məşğul olan mütəxəssislər, kitabxana sahəsi üzrə rəhbər şəxslər innovasiyaları kitabxanaların inkişafının strateji istiqaməti hesab edirlər. Dövlət hakimiyyəti və cəmiyyət mədəniyyətin, elmin, təhsilin, ictimai kommunikasiyaların inkişafında kitabxanaların xüsusi missiyasını qeyd edir. Kitabxanalar yaranmaqda olan biliklər cəmiyyətinin informasiya infrastrukturu kimi qəbul edilir, getdikcə daha da mürəkkəbləşən informasiya texnologiyaları isə bu fikri daha da möhkəmlədir. Lakin bu tendensiyalar heç də həmişə real fəaliyyətlərlə təsdiqlənmir. Öz növbəsində peşəkar kitabxana cəmiyyəti kitabxanaların sosial funksionallığının güclənməsini və cəmiyyətlə kitabxanalar arasında münasibətlərin stereotiplərinin dəyişməsini mümkün edir. Lakin kitabxanaların əhəmiyyətinin cəmiyyət, o cümlədən, real və potensial istehlakçılar tərəfindən dərk edilməsi, kitabxanaların öz fəaliyyətini istifadəçilərinin xeyrinə dəyişdirmək, möhkəmləndirmək və yaxşılaşdırmaq cəhdi ilə müasir kitabxanaların mövcud fəaliyyət təcrübəsi arasında açıq ziddiyyətlər mövcuddur.

Kitabxana innovasiyalarının hədəfi, kommersiya və istehsal sahələrinin hədəflərindən fərqlənir. Kitabxana innovasiyalarının xüsusiyyətlərini aydınlaşdırmaq üçün mütəxəssislər tərəfindən belə bir tərif təklif edilir: kitabxana innovasiyası - fəaliyyətin tətbiq edilmiş yeni keyfiyyət xarakteristikası mütləq və ya nisbi yenilik olan, mənimsənilmiş ənənələrin hüdudlarından kənara çıxan, peşəkar fəaliyyəti prinsipcə yaxşılaşdırılmış və ya keyfiyyətcə yeni səviyyəyə çatdıran nümunəsidir. Kitabxana innovasiyalarının mütləq əksəriyyətinin əsas bazası informasiya-kommunikasiya texnologiyalarıdır. Kitabxanaların innovasiya fəaliyyəti həm də strateji planlaşdırma və proqram xarakterli inkişaf, yeni keyfiyyət menecmenti və ictimai-sosial əməkdaşlığa əsaslanır və bu elementləri üzvi

şəkildə özündə ehtiva edir. Qeyd etmək lazımdır ki, innovasiyaların tətbiq edilməsi və irəliləyişi üzrə fəaliyyətin əsas nəticəsi kitabxanalar tərəfindən istifadəçilərə təqdim edilən məhsulların və xidmətlərin keyfiyyətinin artırılması olmalıdır. Kitabxanalarda innovasiyaların tətbiq edilməsi üçün kitabxana fəaliyyətinin reallıqları nəzərə alınmaqla məxsusi işlənib hazırlanmış idarəetmə konsepsiyası və texnologiyası lazımdır. Kitabxana innovasiyalarının əsas vəzifəsi – kitabxanaların uzunmüddətli, davamlı inkişafını təmin etməyə imkan verən idarəetmə mexanizmlərini yaratmaq və onlardan istifadə etməkdir. Müasir mütəxəssislər, mədəniyyət üzrə ekspertlər, siyasətçilər getdikcə daha çox hallarda sivilizasiyanın inkişafına təkcə iqtisadi xarakterli olmayan müxtəlif fəaliyyət sahələrində yaranmış innovasiyaların ardıcıl zənciri kimi yanaşırlar. Bu mənada innovasiyalı inkişaf mövzusu sadəcə aktual və hətta gündəmdə olan mövzulardan ən müxtəlif fəaliyyət sferalarında və iqtisadiyyatın ən müxtəlif sahələrində sonrakı hərəkətlərə aid olan bir sıra mühüm araşdırmalarda üstünlük təşkil edən mövzuya çevrilir.

Nəticə olaraq qeyd edilməlidir ki, müasir cəmiyyətin, onun bütün sferalarının daimi və ya zəif idarə edilən dəyişkənliyinin, cəmiyyətin iqtisadi inkişafının əsas trendi olan biliklər iqtisadiyyatı amilinin əhəmiyyətinin get-gedə artması ilə əlaqədar, kitabxana sferasında innovasiya fəaliyyətinin spesifik xüsusiyyətlərinin, tətbiq sərhədlərinin, forma və növlərinin aydınlaşdırılması məsələsi, son dərəcə mühüm məna kəsb edir.